# Şairin fikir və söz ilmələri

**Bu gəldi-gedər dünyanın kəşməkeşliyini dərindən duyub dərk etməklə sözü hikmətə çevirib geniş oxucu auditoriyasına çatdıranlar bəşəriyyət tərəfindən sevilərək şair adını qazanırlar.**

Poeziya sadə göründüyü qədər dərin, fəlsəfi bir "elm"dir. Bu elm yalnız həssas qəlbli, dərin təfəkkürə, incə duyğulu, geniş təxəyyülə malik olan insanlara, yurdunu, vətənini ülvi məhəbbətlə sevərək, elinin, obasının qeyrətini çəkənlərə, bu saf və incə hissləri ürəyində yaşatmağı bacaranlara nəsib olur. Həyat duyğularını, ülvi bəşəri dəyərləri, vətənpərvərlik hisslərini, sevgi müqəddəsliyini poetik dillə qələmə almaq müəllifdən başqalarına nəsib olmayan yaşantılar tələb edir. Allah vergisi olan bu xüsusiyyətləri özündə cəmləşdirənlər həyatın müxtəlif sferalarına nüfuz etməyi bacarır, düşünüb, duyub hiss etdiklərini söz-söz, misra-misra poeziyaya çevirərək həyatda özlərinə məxsus əbədi iz qoyurlar.

Belə insanlardan biri, özünəməxsus orijinal yaradıcılıq manevrəsi ilə fərqlənən, poeziyada öz-dəsti xətti olan şair "Gülüstan" elmi-ədəbi məclisinin üzvi Rizvan Qiblədağlıdır.

Müasir insan və onun narahat, ziddiyyətlərlə dolu dünyamızda mövqeyi, xalqımızın yüksək əxlaqi-mənəvi keyfiyyətlərinin yaddaşlarda qorunub saxlanılması, Tanrıya, müqəddəs insanlara, Vətənə, üstündə yaşadığımız dünyaya övlad qayğıkeşliyi onun şeirlərinin ana xəttini təşkil edir.

R.Qiblədağlı "Ön söz" yazmaq üçün mənə təqdim etdiyi "Vardır intizarı xarı bülbülün..." ilk şeirlər kitabı bu həqiqəti bir daha təsdiq edir.

İlk kitab poeziya aləmində imzasını təsdiq etdirmək istəyən şairin ilk uğuru, şairlik "vəsiqəsi"-dir. R.Qiblədağlı əslində bu mərhələni çoxdan adlayıb, - dövri mətbuatda ilk qəlb çırpıntılarını dərc etdirdiyi gündən. Onun yetmişinci illərin sonlarından qəzet və jurnallara, daha sonralar müxtəlif ədəbi almanaxlara ayaq açan şeirləri müəllifin ciddi axtarışlarından soraq verməkdə idi. Sonrakı uğurları da sübut etdi ki, R.Qiblədağlı poeziyaya ötəri həvəs xatirinə gəlməyib.

Tanınmış şair M.İsmayıl yazırdı: "Şeir Allahla şair arasındakı əlaqədən yaranır. Allaha sevgi yaxşı şeirin mayasıdır. İlahiylə görüş anları həyatın ən hissli, həzli anlarıdır". Rizvan Qiblədağlının şeirlərində də Allaha bağlılıq güclüdür, həm də "Qurani-Kərim"ə, Allahın yaratdığı qudsal şəxsiyyətlərə sevgi, sayğı çox qüvvətlidir. Təsadüfi deyildir ki, o, kitabını "Ya Məhəmməd" şeiri ilə başlamışdır:

**Allah səni seçdi Rəsul,**
**Biz qalmayaq deyə məlul.**
**İnsanlara verdin əsil**
**Dəyəri sən, ya Məhəmməd!**

Şairin "Ya Rəsulullah", "Var imiş", "Yunis Əmrə" başlıqlı şeirləri, "gəraylılar"ın, qoşmalar"ın, "cinaşlı bayatılar"ın bir qismi "Qurani Kərim" kitabını, peyğəmbərin kəlamlarını öyrənib insanları, haqqa, ədalətə, düzlüyə, birliyə, insaflı olmağa, xeyirxah işlər görüb xeyirxah əməllərlə yaşamağa, ləyaqətli və dözümlü olmağa, elmi öyrənib xalqa, ölkəyə fayda verməyə sanki çağırışdır.

Hazırda dünyada ən uca Bayraq bizdədir. Artıq hər yerdən görünən, gəlib-gedənləri heyran edən bu Bayraq həm də ölkəmizin həyatında baş verən böyük dəyişikliklərdən xəbər verir. Dövlətimizə, milli dəyərimiz, qürur mənbəyimiz olan üçrəngli Bayrağımıza, digər dövlət rəmzlərimizə R.Qiblədağlının da ehtiramı sevgisi həmişə böyük olub. Bu sevgini o, "Azərbaycan bayrağı" şeirində görün necə tərənnüm etməyə çalışır:

**Səni zirvələrdə gördüyüm zaman,**
**Könlümdə sevincim olur bir ümman.**
**Sənsən bəxş eyləyən həm şöhbət, həm şan,**
**Gözün də, qəlbin də nuru, işığı-**
**Azərbaycan bayrağı !**

Bu qism şeirlərlə müəllif oxucuları əmin etmək istəyir ki, Azərbaycanın ərazi bütövlüyü bərpa ediləndən sonra milli Dövlət Bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarımızda qaldırılacaqdır. Bizim Bayrağımız Dağlıq Qarabağda, Şuşada, Xankəndində dalğalanacaqdır.

Dağlardan, təbiətin saflığından ilhamlanan şair "Dağlar" şeirində:

**... Dərmandır, məlhəmdir gülü-çiçəyi,**
**Bənzəyir gör necə loğmana dağlar.**
**... Olubdur çalması qar zirvələrin,**
**Dönüb ovlağına igidin, ərin...,**

- deyərək insanları saflığa, mənəvi təmizliyə çağırır və xatırladır ki, çoxlarımızın ilhamının mayasını təşkil edən, "kövrəlib dumana bürünən dağlar" ədəbi gözəllik, saflıq məkanıdır. Bu əzəmətli dağlar vətəndir, yurdun dilbər guşəsidir, onun hardasa əvəzi yoxdur:

**Sən nurusan, işığısan gözümün,**
**Mənasısan,hikmətisən sözümün.**
**Tufan dağın mətanətin, dözümün,**
**Vüqarındır Qiblə dağın, Xınalıq.**

Şair hər addımda bizi dağların bakirə saflığını, ana təbiətin bal şirinliyini duymağa çağırır, bu dəvət isə qəlbimizdə xoş ovqat hissi oyadır.

**Dağlar-bəyaz qarıyla,**
**Ağaclar- öz barıyla.**
**Əllər - öz qabarıyla,**
**gözəldir.**

Qarabağın işğalı, yadellilərin torpaqlarımızda at oynatması və bunun xalqımızın mənəviyyatına, onun iqtisadiyyatına vurduğu zərbə kitaba daxil edilmiş "İgidlər, qoymayın Şuşanı darda", "Xocalı", "Qarabağ" - və s. şeirlərin mayasını təşkil edir.

Bəli, təbiətin möcüzəsi, Şuşanın simvolu olan Xarı Bülbül başqa torpaqları sevmirdi, başqa torpaqlarda bitmirdi, yalnız Şuşada bitirdi. Xan qızı Natəvanın, Vaqifin, Cabbarın, Seyidin, Xanın, Bülbülün, Şuşasında.

... Yaxşı yadımdadır, Qubanın II Nügədi kəndindən olan mərhum şair Tahir Şahbala "Gülüstan" elmi-ədəbi məclisinin 2008-ci ilin iyun ayındakı məşğələsinə gələndə bir dəstə gül də gətirmişdi. Məclis üzvlərinə üç-üç, beş-beş paylayaraq dedi :

- Gələndə evimizin yaxınlığından dərmişəm. Xarı Bülbüldür, yollar yorub Qubaya gəlib. Dərdini bizə danışmağa. Bu gözəllik bircəsi digər kəndlərdə də kiminsə qarşısına çıxacaq, şübhəsiz. Bütün bunlardan təsirlənən şair R.Qiblədağlı haray çəkir, igidləri Şuşanı darda qoymamağa çağırır :

**Vardır intizarı Xarı bülbülün,**
**Gileyi, harayı Xanın, Bülbülün.**
**Qaçıbdır yuxusu Vaqifin bilin,**
**İgidlər, qoymayın Şuşanı darda.**

**Əsarətdə qalıb o Cıdır düzü ,**
**Köməyə çağırır Natəvan özü.**
**Mir Möhsün Nəvvabın yoldadır gözü,**
**İgidlər, qoymayın Şuşanı darda.**

Kitabdakı tənqidi xarakterli təmsillər də oxucuların diqqətini cəlb etməməyə bilməz. "Ceyran və əqrəb", "Ulaq və bağça", "Kişi və ilan", "Şeytanlar", "Qarğa" adlı şeirləri belələrindəndir. Müəllif yaltaq, yalançı, xalqın malını dartıb-dağıdan, bədxah, üzdə özünü vətənpərvər kimi göstərən, əslində isə Vətənə xain olanlara öz dərin nifrət hissini bildirir.

Şairi zəbt olunmuş torpaqlarımızın taleyi də düşündürür. Vəhşi ermənilər əsir düşənlərimizin başına insanlığa heş cür yaraşmayan oyunlar açırlar:

**Ey nankor, gözünə eynəyini tax,**
**Qədim salnaməyə, tarixlərə bax.**
**Əzəldən olubdur bizim Qarabağ,**
**Yenə də o bizim, Rizvan, olacaq !**

**("Olacaq!")**

Kitaba daxil edilən başlıqlarda mətni ardıcıllıq gözlənilir və poeziyamızın istər klassik və istərsə də müasir ənənələri baxımından konkret həyat lövhələrinə toxunulur, yığcam və çox sərrast fikirlər irəli sürülür. "Müxtəlif şeirlər", "Gəraylılar", "Qoşmalar", "Dördlüklər", "Rübailər", "Cinaslı bayatılar" və "Bayatılar" başlıqlarının seçilməsi, şairin bu sərlövhələr altında öz fikir və düşüncələrini ifadə etməsi müəllifin poeziyamızın incəliklərinə bələd olduğuna dəlalət edir.

Xüsusilə "Rübailər"ində R.Qiblədağlı klassik poeziyadan yaradıcı şəkildə bəhrələnərək hadisələrə yeni vətəndaş mövqeyindən yanaşaraq özünəməxsus deyim tərzi ilə oxucuların nəzər-diqqətini cəlb edə bilən, yadda qalan misralarını qələmə alıb:

**Təmkin də, dözüm də qəlbin naxşıdır,**
**Hiddətin önündə sınma, yaxşı dur.**
**Qan tökmə, ey insan, səbrin qınına**
**Qəzəb qılıncını qoysan yaxşıdır.**

Əksər halda insanın zahiri görünüşü ilə daxili aləmi vəhdət təşkil edir. Məhz Rizvan Qiblədağlının şeirləri bu meyardan yarandığı üçün sadə və səmimidir.

R.Qiblədağlı qələmə aldığı "Vardır intizarı xarı bülbülün..."şeirlər toplusu oxucular tərəfindən sevilə-sevilə oxunacağına əmin olur və tutduğu bu müqəddəs yolda ona daha böyük uğurlar diləyirik.




**Şixəmməd Seyidməmmədov,**
**A.A.Bakıxanov adına "Gülüstan" elmi-ədəbi məclisinin sədri,**
**AYB-nin üzvü**